Müəllimin fənn imtahanı
iyul, 2016

# İbtidai pillə müəllimləri üçün test

## Riyaziyyat

Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir – peşə biliyi və akademik qabiliyyət – və 42 tapşırıqdan ibarətdir.

Testin maksimal xalı – 65-dir.

Testdə verilmiş tapşırıqlar format baxımından müxtəlifdir. Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra savabı seçin və yazın.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 5 saat vaxt verilir.

Uğurlar arzulayırıq!

# Peşə biliyi

**1.** Ana bir neçə jurnal və kitab aldı. Onun cəmi 55 larisi var idi. Anna hər jurnala 4 lari, hər kitaba isə 8 lari verdi. Qalan məbləğ sadalananlardan hansına bərabər ola bilər?

(ა) 3 lari
(ბ) 4 lari
(გ) 5 lari
(დ) 6 lari

**2.** Bir hesab əməli $\ast$ simvolu ilə qeyd edilmişdir: toplama, çıxma, vurma yaxud bölmə. Məlum olduğu kimi, $8 \ast 4 < 7 \ast 3$-dür. $1,5 \ast 1,5$ nəyə bərabərdir?

(ა) 0
(ბ) 1
(გ) 2,25
(დ)3

**3.** ABC düzbucaqlı üçbucağın A bucağının ölçüsü 45°, katetlərin uzunluğunun cəmi isə 20 sm-dir. Üçbucağın tərəflərində elə M, N və K nöqtələri işarə edilmişdir ki, CMNK düzbucaqlısı alınır, onun tərəflərinin uzunluqları bir-birinə 2 : 3 nisbətindədir. Bu düzbucaqlının kiçik tərəfinin uzunluğu nəyə bərabərdir?




(ა) 4 sm

(ბ) 5 sm

(გ) 6 sm

(დ) 8 sm

**4.** $\left(\frac{9}{17}\right)^6 \cdot \left(\frac{17}{4}\right)^6 \cdot \left(\frac{2}{3}\right)^{12} =$

(ა) $\frac{2}{3}$

(ბ) 1

(გ) $\frac{3}{2}$

(დ) 2

**5.** Çoxmərtəbəli evdə 100 adam yaşayır.

İki müddəa verilmişdir:

I. Bu evin sakinlərindən biri elədir ki, yaşı 10-un mislidir.
II. Bu evin sakinlərindən biri elədir ki, yaşı 10-un misli deyildir.

*Aşağıda sadalananlardan hansı **<u>qeyri-mümkündür?</u>***

(ა) Hər iki müddəa düzgündür

(ბ) Hər iki müddəa səhvdir

(გ) Birinci müddəa düzgün, ikinci müddəa isə səhvdir.

(დ) Birinci müddəa səhv, ikinci müddəa isə düzgündür

**6.** Mağazada armud şaftalıdan 20%, gavalı isə armuddan 50% ucuzdur. Gavalı şaftalıdan neçə faiz ucuzdur?

(ა) 60%

(ბ) 65%

(გ) 70%

(დ) 75%

**7.** Cəmi neçə dördrəqəmli ədəd vardır ki, onun ikinci, üçüncü və dördüncü rəqəmlərindən hər biri əvvəlki rəqəmdən 1 ədəd artıqdır.

(ა) 4

(ბ) 5

(გ) 6

(დ) 7

**8.** Çertyojda perimetri 72 sm-ə bərabər olan simmetrik altıbucaqlı verilmiş, bu altıbucaqlıyı eyni 11 ədəd bərabər kvadrata bölmüşlər. Hər kvadratın tərəfinin uzunluğu:



(ა) 2 sm
(ბ) 2,5 sm
(გ) 3 sm
(დ) 3,5 sm

**9.** A, B və C qutularda 40 qırmızı və 40 ağ kürəcik bölüşdürülmüşdür. Məlumdur ki:

I. A qutudakı qırmızı kürəciklərin miqdarı B və C qutularda birlikdə götürülmüş qırmızı kürəciklərin miqdarından artıqdır.

II. A qutudakı qırmızı kürəciklərin miqdarı C qutudakı ağ kürəciklərin miqdarına bərabərdir.

III. A qutudakı ağ kürəciklərin miqdarı C qutudakı ağ kürəciklərin miqdarından 14 dəfə azdır.

B qutuda neçə ağ kürəcik vardır?

(ა) 5

(ბ) 10

(გ) 15

(დ) 20

**10.** İki operator eyni mətnin eyni miqdarda səhfələrini yığmalıdır. Birinci operator gündə 50 səhfəni, ikinci isə 40 səhfəni yığa bilir. Buna görə də 4 gündən sonra ikinci operatopun yığılmalı 1,4 dəfə çox səhifəsi qaldı. Bir operatorun yığılmalı neçə səhifəsi var idi?

(ა) 300

(ბ) 350

(გ) 400

(დ) 450

**11.** $ABCD$ dördbucaqlıdır.

İki fraqment buraxılmış cümlə verilmişdir:

"əgər ----------------, onda --------------."

Aşağıda verilmiş **(1)**, **(2)** və **(3)** fraqmentlərindən iki fraqmenti seçin və onları boş yerlərdə elə yerləşdirin ki, alınmış cümlə həmişə düzgün olsun.

**(1)** $BD \perp AC$
**(2)** $|BD| = |AC|$
**(3)** $ABCD$ rombdur

(ა) əgər **(1)**, onda **(2)**
(ბ) əgər **(1)**, onda **(3)**
(გ) əgər **(3)**, onda **(1)**
(დ) əgər **(3)**, onda **(2)**

**12.** Bir boru ilə dolu hovuz 6 saatda, ikinci ilə 12 saatda boşalır, üçüncü boru ilə isə boş hovuz 5 saatda dolur. Əgər hər üç borunu eyni vaxtda açsaq yarım dolu hovuz neçə saatda boşalar?

(ა) 10 saat
(ბ) 11 saat
(გ) 12 saat
(დ) 13 saat

**13.** Üç natural ədədin cəmi 4-ün mislidir. Birinci ədəd ikincidən 5 vahid çox, üçüncüdən isə üç vahid azdır. Birinci ədəd sadalananlardan hansına bərabər ola bilər?

(ა) 7-yə
(ბ) 8-ə
(გ) 9-a
(დ) 10-a

**14.** Bağda beş ağac vardır: akasiya, cökə, şimşad, evkalipt və maqnoliya.

Tutaq ki:

- Akasiya cökədən tez çiçəklənir.
- Cökə və evkalipt şimşad ağacından daha gec çiçəklənir.
- Maqnoliya evkaliptdən daha tez, ancaq akasiyadan daha gec çiçəklənir.

Bu ağaclardan neçəsi akasiyadan daha gec çiçəklənir?

(ა) İki yaxud üç
(ბ) Üç yaxud dörd
(გ) Ancaq bir
(დ) Ancaq iki

## Göstəricilərin təhlili

*Aşağıda cədvəl halında göstəricilər verilmişdir. Sonrakı iki suala bu cədvəl üzrə cavab verin.*

Cədvəldə bəzi ölkənin əhalisinin miqdarının nəyə bərabər olduğu, çar sarayını saxlamaq üçün ölkənin büdcəsindən nə qədər məbləğin xərcləndiyi və bunun ümumi daxili məhsulun (ÜDM) hansı hissəsini təşkil etdiyi göstərilmişdir.

| Ölkə | Əhalinin miqdarı | Çar sarayı üçün büdcədən xərclər | Ümumi daxili məhsulda ÜDM-də xərdclərin payı |
|---|---|---|---|
| Norveç | 4,9 mln | 25,6 mln dollar | 0,00005 |
| Yaponiya | 126,7 mln | 60 mln dollar | 0,00001 |
| Böyük Britaniya | 63,2 mln | 52 mln dollar | 0,00002 |
| İspaniya | 46,2 mln | 10 mln dollar | 0,00003 |
| Hollandiya | 16,6 mln | 52 mln dollar | 0,00006 |

Suallara keçid: 15 16

**15.** Çar sarayı üçün çəkilmiş büdcədən xərclər, əhalinin adambaşına hesablamaqla daha çoxdur:

(ა) Norveçdə

(ბ) Yaponiyada

(გ) Böyük Britaniyada

(დ) Hollandiyada

Cədvələ baxış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**16.** Yaponiyanın ümumi daxili məhsulu İspaniya ilə müqayisədə neçə dəfə artıqdır?

(ა) 3 dəfə

(ბ) 6 dəfə

(გ) 9 dəfə

(დ) 18 dəfə

Cədvələ baxış

**17.** MNK üçbucaqlısının MN tərəfinin uzunluğunun NK tərəfinin uzunluğuna nisbəti $\frac{4}{9}$-a bərabərdir. MK tərəfinin uzunluğunun NK tərəfinin uzunluğuna nisbəti sadalananlardan hansına bərabər ola bilər?

(ა) $\frac{1}{3}$-ə

(ბ) $\frac{4}{9}$-a

(გ) $\frac{4}{3}$-ə

(დ) $\frac{1}{2}$-ə

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**18.** $b$-ni $k$-ya bölərkən alınan qalıq 7-yə, $7b$-ni həmin ədədə bölərkən isə alınan qalıq 1-ə bərabərdir. $k$ sadalananlardan hansına bərabər **ola bilməz?**

(ა) 8

(ბ) 12

(გ) 16

(დ) 20

**19.** Məlumdur ki:

I. Vaja Ketini yaxud Ekanı tanıyır.

II. Əgər Vaja Ketini tanıyırsa, demək olar ki, Ekanı da tanıyır.

Bu şərtlərdən hansı nəticə çıxarılır?

(ა)Vaja Ketini tanıyır

(ბ)Vaja Ekanı tanıyır

(გ)Vaja Ketini tanımır

(დ)Vaja Ekanı tanımır

**20.** Dairəvi cığırı Dato 1 saatda 5 dəfə, Levan isə 7 dəfə dolanır. Əgər onlar eyni istiqamətdə qaçırlarsa, görüşdən neçə dəqiqə sonra bir-birləri ilə görüşəcəklər?

(ა) 15
(ბ) 20
(გ) 30
(დ) 35

**21.** 6 eyni cür qutu ilə 1 dm uzunluğunda tili olan kub formalı cisim düzəltdilər. 3 dm uzunluğunda tili olan kub formalı cismi düzəltmək üçün neçə bu qədər qutu lazımdır?

(ა) 18
(ბ) 54
(გ) 108
(დ) 162

**Göstəricilərin kifayət etməsi**

**22.** $m$ və $n$ natural ədədlərdir.

İki şərt verilir:

I. $mn$ cüt ədəddir.

II. $m(n-1)$ cüt ədəddir.

$n$-nin cüt yaxud tək olduğunu müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir

(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir

(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir

(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir

(ე) Verilən şərtlər kifayət deyildir




**23.** $A$, $B$ və $C$ nöqtələri yarımçevrə üzərində yerləşir, $AC$ çevrənin diametridir.

İki şərt verilir:

I. $AB$ və $BC$ qövslərinin dərəcə ölçüsünün nisbəti 3 : 2-dir.

II. $AB$ qövsünün dərəcə ölçüsü $BC$ qövsünün dərəcə ölçüsündən $36°$ artıqdır.

$AB$ qövsünün dərəcə ölçüsünün nəyə bərabər olduğunu müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir

(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir

(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir

(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir

(ე) Verilən şərtlər kifayət deyildir

**24.** A şəhərinin əhalisinin $\frac{3}{5}$ hissəsi həddi-büluğa çatanlardır.

İki şərt verilir:

I. A şəhərində həddi-büluğa çatmamış qızların və oğlanların sayı bir-birinə bərabərdir.

II. A şəhərində həddi-büluğa çatanların sayı 18 minə bərabərdir.

A şəhərindəki həddi-büluğa çatmış qadınların sayının nəyə bərabər olduğunu müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir

(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir

(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir

(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir

(ე) Verilən şərtlər kifayət deyildir

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**25.** A ədədlərin elə çoxluğudur ki: 1) Əgər $x \in$ A, onda $(-x) \in$ A;

2) Əgər $x \in$ A və $y \in$ A, Onda $x + y \in$ A.

İki şərt verilir:

I. $1 \in$ A

II. $0 \in$ A

A ədədlər çoxluğunun $(-2)$ məxsus olub-olmadığını müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir

(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir

(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir

(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir

(ე) Verilən şərtlər kifayət deyildir

**26.** Divarın düzbucaqlı forması vardır. Bu divarın 8 $m^2$ sahəsi olan səthini rəngləmək üçün 1 bərni boya lazımdır.

İki şərt verilir:

I. Divarı boyamaq üçün 4,5 bərni boya lazım gəldi.

II. Divarın hündürlüyü uzunluğundan 5 m azdır.

Divarın uzunluğunun neçəyə bərabər olub-olmamasını müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir

(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir

(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir

(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir

(ე) Verilən şərtlər kifayət deyildir

**27.** Mağazada qırmızı, yaşıl və göy rəngli karandaşlar satılır. Qırmızı karandaşın hər biri 5 tetri, yaşıl karandaş - 10 tetri, göy karandaş isə 25 tetridir.Yelena bu mağazadan hər üç rəngli karandaşları aldı və buna cəmi 60 tetri verdi.

İki şərt verilir:

I. Yelena cəmi 6 ədəd karandaş aldı.

II. Yelenanın aldığı karandaşlardan 3-ü qırmızı rəngli idi.

Yelenanın cəmi neçə yaşıl karandaş aldığını müəyyən etmək üçün:

(ა) I şərt kifayətdir, II isə kifayət deyildir
(ბ) II şərt kifayətdir, I isə kifayət deyildir
(გ) I və II şərtlər birlikdə kifayətdir, ayrı-ayrılıqda isə heç biri kifayət deyildir
(დ) Ayrı-ayrılıqda həm I, həm də II şərt kifayətdir
(ე) Verilən şərtlər kifayət deyildir

**28.** İkirəqəmli ədədi onun rəqəmlərinin cəminə böldükdə alınmış qismət 5-ə, qalıq isə 3-ə bərabərdir. Bütün bu cür ikirəqəmli ədədi tapın.

Cavabı əsaslandırın.

(Maksimal xal - 2)

**29.** Katetlərinin uzunluqları santimetrlə tam ədədlər halında əks etdirilən düzbucaqlı üçbucağın sahəsi 6 $sm^2$-ə bərabərdir. Bu üçbucağın perimetrinin 26 sm-dən az olduğunu əsaslandırın.

Cavabı əsaslandırın.

(Maksimal xal - 3)

**30.** Qutuda 36 ədəd alma və 44 ədəd heyva vardır. Heyvaların faizlə payı 70%-ə bərabər olması üçün qutuya neçə ədəd heyva əlavə edilməlidir?

Cavabı əsaslandırın.

(Maksimal xal - 3)

**31.** Tutaq ki, hər hansı $x$ və $y$ ədədləri üçün $x * y$ sonrakı bərabərliklə hesablanır: $x * y = x \cdot y - x$

- $(2 * 3) * 4$ nəyə bərabərdir?
- $\big((-x) * y\big) = \big(x * (-y)\big)$ və $(x + y) * z = x * z + y * z$ bərabərliklərdən ona daxil olan hərflərin hər bir qiyməti üçün hansı düzgündür?

Cavabı əsaslandırın.

(Maksimal xal - 3)

**32.** A məntəqəsindən B-yə getmək üçün bərabər sürətlə hərəkət edən motosikletçiyə 3 saat, velosipedçiyə isə 7 saat vaxt lazımdır. Velosipedçi A məntəqəsindən B məntəqəsi istiqamətində getdi, 3 saatdan sonra isə motosikledçi getdi. Motosikledçi velosipedçiyə neçə saatda çatacaqdır?

Cavabı əsaslandırın.

(Maksimal xal - 3)

**33.** Düzbucaqlı paralelepipedin hündürlüyü 3 sm-ə bərabərdir, oturacağının uzunluğu isə enindən 5sm artıqdır. Əgər oturacağının uzunluğunu 1sm azaltsaq, enini isə 1sm artırsaq, paralelepipedin hündürlüyünü dəyişdirməsək düzbucaqlı paralelepipedin həcmi neçə kubsantimetr azalar yaxud artar?

Cavabı əsaslandırın.

(Maksimal xal – 3)

**34.** Altıncı sinif şagirdlərinə aşağıdakı işi təklif etmişlər:

**1)** Hesablayın: I. $6\frac{3}{7} \cdot \frac{2}{3}$ II. $12\frac{3}{5} \cdot 2\frac{5}{6}$ III. $3{,}25 : 25$

**2)** Sinfin şagirdlərindən 13-nün qardaşı, 11-nin isə bacısı vardır, 3 şagirdin isə həm qardaşı, həm də bacısı vardır. Ancaq Qiya və Anna anasının yeganə övladlarıdır. Sinifdə cəmi neçə şagird vardır?

**3)** Nəvənin yaşı babanın 44 il bundan əvvəl olan yaşı qədərdir. Əgər 10 ildən sonra nəvəsindən 3 dəfə yaşlı olarsa, babanın neçə yaşı vardır?

**4)** Kvadratın perimetrinin nisbəti düzbucaqlının perimetrinə 8 : 5 q ədər, düzbucaqlının uzunluğunun eninə nisbəti isə 3 : 2-yə bərabərdir. Hansının sahəsi artıqdır, kvadratın yaxud düzbucaqlının və neçə dəfə?

Şagirdlərdən birinin əsəri verilmişdir:

1) I. $6\frac{3}{7}\cdot\frac{2}{3}=4+\frac{3}{7}\cdot\frac{2}{3}=4\ \frac{2}{7}$  II. $12\frac{3}{5}\cdot 2\frac{5}{6}=24+\frac{3}{5}\cdot\frac{5}{6}=24\frac{1}{2}$

III. $3,25:25=0,0325\cdot 4=0,013$

2) Qardaş – 13, bacı – 11, bacı və qardaş – 3, Qiya və Anna – 2, cəmi 29.

3) 10 ildən sonra nəvə $44:2=22$ yaşında, baba $22+44=66$ yaşında olacaqdır.

4) Kvadratın perimetri – 8, tərəfinin uzunluğu – 2, sahəsi – 4

Düzbucaqlının perimetri – 5, uzunluğu – 3, eni – 2, sahəsi – 6

Düzbucaqlının sahəsi artıqdır $6:4=1,5$ dəfə

- Şagirdin buraxdığı hər bir səhvi göstərin və düzəldilmiş formada yazın.

(Maksimal xal - 3)

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

Baş beyinin tədqiqinin nəticələri pedaqogika üçün faydalı ola bilərmi? “Təhsil və baş beyin – yeni pedaqogikaya doğru gedən yol” – son illərdə bu cür optimist pafosla çoxsaylı elmi məqalə, çıxış yaxud kitab yazılmışdır. Baş beyinin funksiyası və strukturunun tədqiqinin nəticələri əsasında tədris yanaşmalarının işlənib hazırlanması təhsil elmlərinin yeni istiqamətidir və bu gündən-günə inkişaf edir və daha çox əhəmiyyət kəsb edir. Neyropedaqogika psixologiyadan, pedaqogikadan və neyroelmlər sahəsindən zəngin elmi materiala əsaslanır və təhsilə yanaşmanın işlənib hazırlanmasını, baş beyinin inkişafının qanunauyğunluğunu nəzərə almaq məqsədi güdür

Neyrobioloqlar tərəfindən beyinin inkişafının dinamikasının öyrənilməsi göstərmişdir ki, emosiyalar koqnitik inkişafa əsaslanır, həm də insanın motivasiyasının, özünüqiymətləndirməsinin, qərarlar qəbul etməsinin və təhsil qabiliyyətinin inkişafında fundamental rol oynayır. Əgər öyrənilәsi material şagird üçün maraqlıdırsa, baş beyində  dofamin hormonu (sevinc hormonu) ayrılır. Adam dofaminin mövcudluğuna adət edir və onu müəyyən səviyyədə saxlamağa cəhd göstərir. Stres, qorxu, həyəcan fonunda fikrin, təhlilin prosesi pozulur, çünki amiqdala (emosiyaların işlənib hazırlanmasına görə məsuliyyət daşıyan beyinin bir hissəsi) yuxarıda göstərilən təhlükələri informasiyanın bloka salınması vasitəsilə cavab verir.

Güzgüvari neyronların aşkara çıxarılması neyroelmlər sahəsində ən yeni nailiyyət sayılır. Biz hər hansı hərəkəti icra edərkən yaxud nəsə bir emosiya keçirərkən müəyyən neyronlar fəallaşır. Bunu artıq bilirik, ancaq möcüzəvidir ki, insanlar başqasının hərəkətinə diqqət yetirəndə yaxud həyəcan keçirən (yaxud sadəcə olaraq elə düşünür ki, guya bütün bunlar onun başına gəlmişdir) zaman fəallıq edən  neyron qrupu mövcuddur. Bu güzgüvari neyronlar bizimlə başqaları arasında fərqi “seçə bilmirlər”. Neyroalimlərin ehtimalına görə məhz empatiyanın inkişafında, başqa insanın hərəkətinin başa düşülməsində və imitasiya vasitəsilə yeni qabiliyyətin formalaşmasında iştirak edirlər.

**Suallara keçid:** 35 36 37 38 39 40 41

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

Şagirdlərin emosional inkişaf etməməsi intizam problemləri və koqnitik qabiliyyətin inkişafında maneələr törədir. Neyropedaqogika şagirdlərə beyinin funksiyaları haqqında məlumat verməyi məsləhət görür ki, bu da özünü idarəetməyə, özününəzarətə və refleksiya qabiliyyətinin inkişafına, həmçinin tədris strategiyalarından düşünülmüş halda istifadə olunmasına imkan yaradır.

Hazırda neyropedaqogika haqqında elmi dairələrdə kəskin mübahisələr gedir. Bu istiqamətin tərəfdarları neyroelmlər biliyindən istifadə olunmasını öyrənməyi və ümumiyyətlə hərəkəti izah etməyi başlıca xidmət sayırlar. Skeptiklərin fikrincə isə neyropedaqogik "kəşflər" psixologiyada illər ərzində toplanmış bilikdən başqa bir şey deyildir.

**Suallara keçid:** 35 36 37 38 39 40 41

**35.** Mətndə birinci abzasın ikinci cümləsinin hansı funksiyası vardır?

(ა) Onda mətnin birinci cümləsində verilmiş sualın dəqiq və inandırıcı cavabı verilmişdir.
(ბ) Təhsil elmləri haqqında bütün mətndə söhbət gedən yeni istiqamətinə maraq doğurur.
(გ) Neyroelmi biliyin pedaqogikaya tətbiqinin zəruriliyini və bu istiqamətdə yüksək elmi dəyərləri əks etdirir.
(დ) Neyropedaqogikanın yüksək praktiki dəyərini təsdiq edir və onun uğurla tətbiqi imkanı haqqında fikri təsdiqləyir.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**36.** Mətnə əsasən emosiya və tədris prosesi arasında münasibət haqqında demək olar ki:

(ა) Emosiyalar tədris prosesinə birtərəfli müsbət təsir göstərir, motivasiyanı artırır, düşünmə prosesinə imkan yaradır.
(ბ) Tədris prosesini müşayiət edən emosiyalar baş beyində neyrobioloji dəyişikliklərə səbəb olur ki, bu da mövcud intellektual ehtiyyatların fəallaşması ilə nəticələnir.
(გ) Tədris prosesini müşayiət edən hər hansı emosiyanın işlənib hazırlanmasına baş beyinin bir hissəsi koqnitik proseslərə mane olan amiqdala cavabdehdir.
(დ) Müsbət emosiyalara nail olmaq yolu ilə təhsilin və ümumiyyətlə dərketmə proseslərinin yaxşılaşdırılmasına nail olunur.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**37.** Üçüncü abzasda oxuyuruq: “güzgüvari neyronlar bizimlə başqaları arasında fərqi “seçə bilmirlər”. Aşağıda sadalananlardan bu cümlənin düzgün şərhi hansıdır?

(ა) Güzgüvari neyronların fəallaşması baş beyinin fəaliyyətinin bir növ səhvidir ki, bu da insanın səhv hərəkətlərinə əsas yaradır.
(ბ) İnsanın başqa adamda müşayiət etdiyi hərəkəti həyata keçirməsi güzgüvari neyronların fəallaşması  üçün vacib şərtdir.
(გ) Güzgüvari neyronların fəallaşması başqa insanın hərəkətinin yaxud həyəcanının simulyasiyası vasitəsidir.
(დ) İnsanın başqa insan barədə də empatiya keçirməsi zamanı da güzgüvari neyronlar fəallaşırlar.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**38.** Aşağıda şagirdin özünü idarəetmə qabiliyyətinin inkişaf strategiyaları verilmişdir.Mətndə onlardan hansında sübut tapılar?

(ა) Xoşagəlməz hərəkət aşkar edildiyi təqdirdə məzəmmət etmək.
(ბ) Münaqişəli şəraitdə ağıllı reaksiya nümayiş etdirmək.
(გ) Bu və ya digər arzu olunan hərəkətin mənəvi cəhəti barədə söhbət etmək.
(დ) Münaqişəli şəraitdə ağıllı reaksiya etmək yollarını onlarla birlikdə müzakirə etmək.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**39.** Aşağıda sadalananlardan hansı cümlələr cütlüyündə düzgün ardıcıllıqla ilkin şərt (I) və nəticə (II) <u>**verilməmişdir?**</u>

(ა) I. Şagird müəllimdən qorxur;
II. O düşünməkdə və informasiyanı təhlil etməkdə çətinlik çəkir.
(ბ) I. Öyrənilməli material şagird üçün maraqlıdır;
II. Ona xoş emosiya hakim olmuşdur.
(გ) I. Şagird baş beyinin fəaliyyət xüsusiyyətlərini bilir;
II. O tədris strategiyalarından düşüncəli halda istifadə etməyi bacarır.
(დ) I. Şagirdin yaxşı inkişaf etmiş özünü idarəetmə qabiliyyəti yoxdur;
II. O emosional baxımdan yetkinləşməmişdir.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**40.** Mətnin son cümləsində kəşflər sözü nə üçün dırnaqda verilmişdir?

(ა) Neyropedaqoji rəqiblərin bu yeni istiqamətə skeptik münasibəti göstərilmişdir.
(ბ) Neyropedaqoji tapıntıların zəif elmi və praktiki dəyərləri göstərilmişdir.
(გ) Mətnin müəllifinin neyropedaqoji tapıntılara skeptik münasibəti əks etdirilmişdir.
(დ) Neyropedaqogikanın rəqiblərinin tənqidi münasibətlərinin əsassızlığı qeyd edimişdir.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**41.** Birinci abzasın başlanğıcında sual verilir: “Baş beyinijn tədqiqatının nəticələri pedaqogika üçün faydalı ola bilərmi?” Aşağıda sadalananlardan onun cavabı hansıdır?

(ა) Mümkün deyildir, çünki neyropedaqogika tədris prosesini yaxşılaşdıra bilən strategiyalar haqqında müvafiq və inandırıcı tədqiqat sübutları tapa bilməmişdir.

(ბ) Mümkündür, çünki neyropedaqogika neyroelmi tədqiqatın nəticələrindən istifadə etmək yolu ilə tədris prosesini yaxşılaşdırmaq üçün tövsiyələr işləyib hazırlayacaqdır.

(გ) Mümkündür, çünki neyropedaqogikanın innovasiya kəşfləri tədris kontekstini və ümumiyyətlə maarif prosesini yaxşılaşdırmaq üçün bizə tamamilə fərqli yanaşma təklif edir.

(დ) Mümkün deyildir, çünki neyropedaqogikanın tədris prosesi yeni qaydada dərk etməsinə cəhd göstərməsi elmi dairələrin diqqətini cəlb etməmişdir.

Mətinin I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42

**42. Analitik yazı**

**Sosial şəbəkədən bir neçə dialoq:**

***

- “Uşaqlar, 5-ci məsələni başa düşmədim, onu mənə yazdırın, bir səhvim olarsa, Eka müəllim mənimlə dalaşar” – Qio
- “Başa düşməyibsənsə, xahiş et, dərsdə izah etsin, nə olar!” – Nino
- “Dərsdə dinləsəydin səhvsiz həll edərdin!” – Eka (riyaziyyat müəllimi)

***

- “Laşa, dünənki yekun dərsində nə qiymət aldın?” – Qio
- “Mənə 9 xal yazdı!” – Laşa
- “Səhv buraxdın, yenə də ...?” – Qio
- “Hə, dedi ki, mexaniki səhvdir, başlıcası, düzgün yol tapmışsan...” – Laşa

**Mülahizə yürüdün:**

- Məktəb həyatında nöqsana qarşı necə münasibət olmalıdır (mülahizə yürüdərkən nəzərə alın ki, həm şagirdlər, həm də müəllimlər səhv buraxa bilərlər);
- Bu sualı ümumiləşdirin; səhvlərə müxtəlif reaksiya nəticəsində nə kimi nəticə ala biləcəyimizi müzakirə edin.

*Mülahizələri möhkəmləndirmək üçün dəlillər və misallar gətirin. Sizin yazdığınız əsərdə ən azı 100 söz olmalıdır.* *(Maksimal xal – 11)*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42